AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THE TANZIMAT ERA AND 19TH-CENTURY AZERBAIJANI CHILDREN'S LITERATURE: A COMPARATIVE-TYPOLOGICAL ANALYSIS

**Samira Safarova**[1]

**UDC:** 82-311.3:821.512.162
**LBC:** 84(5Aze):83.3(2Tur)
**HoS:** 66
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.112-122

**Keywords:**

Azerbaijani children's literature,
Tanzimat era children's literature,
Enlightenment,
Educational ideas

## ABSTRACT

This article presents a comparative-typological analysis of the innovations in children's literature during the Tanzimat era and the emergence and development of children's prose in Azerbaijani literature of the same period. The Tanzimat era is characterized as a phase marked by the strengthening of educational ideologies and Western influences, during which classical-didactic literary structures were gradually replaced by more modern forms and content. While Ottoman children's literature of this period emphasized moral education, patriotism, and the transmission of new knowledge, similar tendencies such as enlightenment, national self-awareness, and the shaping of the child as an individual are observed in Azerbaijani children's literature. The study explores parallels between the works of Azerbaijani educational writers such as Seyid Azim Shirvani and Hasan bey Zardabi, who sought to produce texts suitable for children's comprehension, and Tanzimat-era Ottoman authors like Kayserili Doctor Rüştü, Ahmet Midhat, and Mehmed Şemsettin, who engaged in similar literary endeavors. Furthermore, the article identifies the similarities and differences between these two literary traditions in terms of language, style, genre, and ideological content. Ultimately, it concludes that in both cultural contexts, the formation of children's literature was closely linked to movements for modernization and enlightenment, where adapting classical oral and written traditions to the needs of a new era played a crucial role.

[1] Junior Researcher, Department of "Turkic Philology", Institute of Oriental Studies named after acad. Z.M. Bunyadov, ANAS; Baku, Azerbaijan
E-mail: samire_1980@mail.ru
https://orcid.org/0009-0008-8127-3022
**To cite this article:** Safarova, S. [2025]. The Tanzimat Era and 19th-Century Azerbaijani Children's Literature: A Comparative-Typological Analysis. *History of Science journal*, *6*(2), pp.112-122.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.112-122

***Article history:***
*Received: 18.03.2025*
*Accepted: 03.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# TƏNZİMAT DÖVRÜ VƏ XIX ƏSR AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI: MÜQAYİSƏLİ-TİPOLOJİ TƏHLİL

**Samirə Səfərova**[1]

**UOT:** 82-311.3:821.512.162
**KBT:** 84(5Aze):83.3(2Tur)
**HoS:** 66
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.112-122

**Açar sözlər:**

Azərbaycan uşaq ədəbiyyatı,
Tənzimat dövrü uşaq ədəbiyyatı,
Maariflənmə,
Maarifçilik ideyaları

**ANNOTASİYA**

Məqalədə Tənzimat dövründə uşaq ədəbiyyatında yaranan yeniliklər ilə eyni dövrdə Azərbaycan ədəbiyyatında uşaq nəsrinin təşəkkülü və inkişafı müqayisəli-tipoloji aspektdə təhlil olunur. Tənzimat dövrü maarifçilik ideologiyasının və Qərb təsirlərinin gücləndiyi, ədəbiyyatda klassik-didaktik strukturların tədricən müasir forma və məzmunla əvəz olunduğu bir mərhələ kimi xarakterizə edilir. Bu dövrün Osmanlı uşaq ədəbiyyatında əxlaqi tərbiyə, vətənpərvərlik və yeni biliklərin aşıladığı mətnlər ön plana çıxarkən, Azərbaycan uşaq ədəbiyyatında da oxşar tendensiyalar-maarifçilik, milli özünüdərk və uşağın şəxsiyyət kimi formalaşması ideyaları nəzərə çarpır. Məqalədə Seyd Əzim Şirvani, Həsən bəy Zərdabi və digər maarifçi yazarların uşaq təfəkkürünəuyğun mətn yaratmaq istiqamətindəki fəaliyyəti ilə Kaysərili həkim Rüştü, Əhməd Midhət və Mehmed Şəmsəddin kimi Tənzimat dövrü yazarlarının oxşar təşəbbüsləri arasındakı paralellər araşdırılır. Həmçinin dil, üslub, janr və ideoloji məzmun baxımından bu iki ədəbiyyat ənənəsinin bənzər və fərqli cəhətləri üzə çıxarılır. Nəticə olaraq, qeyd olunur ki, hər iki coğrafiyada uşaq ədəbiyyatının təşəkkülü modernləşmə və maarifləndirmə hərəkatları ilə sıx bağlı olmuş, bu prosesdə klassik şifahi və yazılı ənənələrin yeni dövr tələblərinə uyğunlaşdırılması mühüm rol oynamışdır.

[1] AMEA, akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, "Türk filologiyası" şöbəsi, kiçik elmi işçi; Bakı, Azərbaycan
E-mail: samire_1980@mail.ru
https://orcid.org/0009-0008-8127-3022
**Məqaləyə istinad:** Səfərova, S. [2025]. Tənzimat Dövrü və XIX Əsr Azərbaycan Uşaq Ədəbiyyatı: Müqayisəli-tipoloji Təhlil. *History of Science jurnalı*, *6*(2), səh.112-122.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.112-122

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 18.03.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 21.04.2025*
*Çapa qəbul edilmişdir: 03.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ЭПОХА ТАНЗИМАТА И ДЕТСКАЯ ЛИТЕРАТУРА АЗЕРБАЙДЖАНА XIX ВЕКА: СРАВНИТЕЛЬНО-ТИПОЛОГИЧЕСКИЙ АНАЛИЗ

**Самира Сафарова**[1]

**УДК:** 82-311.3:821.512.162
**ББК:** 84(5Азер):83.3(2Тур)
**HoS:** 66
**DOI:** 10.33864/2790-0037.2025.v6.i2.112-122

**Ключевые слова:**

Детская литература Азербайджана,
Детская литература эпохи Танзимата,
Просвещение,
Идеи просветительства

## АННОТАЦИЯ

В статье проводится сравнительно-типологический анализ новшеств, возникших в детской литературе эпохи Танзимата, и становления и развития детской прозы в азербайджанской литературе того же периода. Эпоха Танзимата характеризуется как этап усиления просветительской идеологии и западного влияния, когда классико-дидактические структуры в литературе постепенно заменяются современными формами и содержанием. В детской литературе Османской империи этого периода на первый план выходят тексты, пропагандирующие нравственное воспитание, патриотизм и новые знания. В азербайджанской детской литературе также наблюдаются схожие тенденции идеи просвещения, национального самосознания и формирования личности ребёнка.

В статье рассматриваются параллели между деятельностью таких азербайджанских просветителей, как Сеид Азим Ширвани, Гасан бей Зардаби и других авторов, стремившихся создавать тексты, соответствующие детскому мышлению, и аналогичными инициативами османских писателей эпохи Танзимата, таких как врач из Кайсери Рюшдю, Ахмед Мидхат и Мехмед Шемседдин. Также выявляются сходства и различия между этими двумя литературными традициями с точки зрения языка, стиля, жанра и идеологического содержания. В заключение подчёркивается, что становление детской литературы в обеих географических зонах было тесно связано с движениями модернизации и просвещения, и в этом процессе важную роль сыграла адаптация классических устных и письменных традиций к требованиям нового времени.

[1] Младший научный сотрудник, отдел «Тюркская филология», Институт востоковедения им. акад. З. М. Буниатова, НАНА; Баку, Азербайджан
E-mail: samire_1980@mail.ru
https://orcid.org/0009-0008-8127-3022

**Цитировать статью:** Сафарова, С. [2025]. Эпоха Танзимата и детская литература Азербайджана XIX Века: сравнительно-типологический анализ. *Журнал History of Science, 6*(2), c112-122.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.112-122

***История статьи:***
*Статья поступила в редакцию: 18.03.2025*
*Отправлена на доработку: 21.04.2025*
*Принята для печати: 03.06.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Tənzimat dövrü Osmanlı ədəbiyyatı ilə XIX əsr Azərbaycan uşaq ədəbiyyatı arasında paralellərin aparılması, bu iki coğrafiyada baş verən maarifçi, əxlaqi və pedaqoji fikirlərin uşaq ədəbiyyatına necə sirayət etdiyini araşdırmaq baxımından əhəmiyyətlidir. Hər iki dövrdə uşaq tərbiyəsi və cəmiyyətin maariflənməsi məqsədilə yazılmış ədəbi nümunələr, ictimai transformasiyanın məhsulu kimi meydana cıxmışdır. Məqalədə Tənzimat dövrü Osmanlı uşaq ədəbiyyatı ilə XIX əsr Azərbaycan uşaq ədəbiyyatının müqayisəli-tipoloji şəkildə araşdırılması məqsədilə hər iki dövrdə uşaq ədəbiyyatında mövcud olan oxşar və fərqli cəhətlərin üzə çıxarılması, uşaq obrazlarının təqdimatı və didaktik motivlərin təhlili, müəlliflərin yaradıcılıq xüsusiyyətlərinin müqayisəli təhlili, maarifçilik və əxlaqi dəyərlərin ədəbi kontekstdə izahı vasitəsilə bu dövrlərin uşaq ədəbiyyatının formalaşmasında və inkişafında oynadığı funksional və ideoloji rolun müəyyənləşdirilməsi nəzərdə tutulur.

## 2.Tənzimat dövrü uşaq ədəbiyyatına ümumi baxış

1839-cu il Tənzimat Fərmanı yalnız siyasi islahatların başlanğıcı olmaqla kifayətlənməmiş, eyni zamanda Osmanlı cəmiyyətində geniş miqyaslı sosial dəyişikliklərə təkan vermişdir. Bu dövr, xüsusilə təhsil sahəsindəki yeniliklərin və maarifçilik hərəkatının başlanması ilə əlamətdar olmuşdur. Təhsilin dövlət siyasətində prioritet hal alması ilə paralel olaraq, ziyalıların bu sahəyə yönələn fəaliyyəti də strateji müstəviyə daşınmışdır. Tənzimat dövrünün ziyalıları yalnız təhsil sisteminin qurulması ilə deyil, həm də bu sistemə uyğun mədəniyyət və ədəbiyyat sahələrinin formalaşması ilə yaxından maraqlanmışlar. Bu kontekstdə uşaq ədəbiyyatının inkişafı xüsusi əhəmiyyət kəsb edir. Həmin dövrün maarifci ziyalıları uşaqlar üçün nəzərdə tutulmuş jurnallarda tərcümə və müvafiq şəkildə adaptasiya edilmiş əsərlər təqdim etməklə, bu janrın təşəkkülünə və formalaşmasına mühüm töhfələr vermişlər. Onların fəaliyyəti, Qərb uşaq ədəbiyyatının nümunələrinin türkcəyə çevrilməsi və adaptasiyası ile yanaşı, yerli ədəbi dilin uşaqlara xitab edən üslubda inkişafına da şərait yaratmışdır. Beləliklə, Tənzimat dövrü yalnız inzibati və hüquqi islahatlarla deyil, həm də uşaq ədəbiyyatının və ümumilikdə maarifçi mədəniyyətin formalaşması baxımından dönüş nöqtəsi hesab oluna bilər. Tənzimat prosesi ile “uşaqlar” da fərd kimi qəbul edilir və uşağın ehtiyacları üçün müəyyən işlər aparılırdı. Cəmiyyətdə savadlı şəxslərin fəallaşması ilə nüvə ailə tipi tədricən geniş ailə tipini əvəz etməyə başlayır. Beləliklə, uşaq fenomeni ön plana cıxır. Uşağın bir şəxsiyyət kimi qiymətləndirildiyi bu dövrdə uşaqların təhsilinıə, tərbiyəsinə və sosiallaşmasına diqqət yetirilirdi. Ədəbi əsərlərdə uşağa xüsusi bir mövzu kimi yanaşılır, ailənin uşaq üçün əhəmiyyəti vurgulanırdı. Uşağın şəxsiyyətinin formalaşmasında ailənin əhəmiyyəti və eyni zamanda uşaq tərbiyəsi haqqında pedaqoji fikrin ədəbiyyatda yer alması əhəmiyyətli şəkildə inkişaf etmişdir. Uşaq ədəbiyyatı termininin Türkiyədə nə vaxt işlənməyə başladığı hələ də müəyyən edilməmişdir. Mövcud araşdırmalara görə Əli Nüsrətin (1874-1912) “Şurayi Ümmet” (1908) qəzetində uşaq və ədəbiyyat əlaqəsi mövzusunda bir neçə məqalə yazdığı məlumdur. Satı bəy (1880-1969) “Tedrisatı İptidaye Mecmuası”nda bir məqalə yazmış, uşaq ədəbiyyatı ifadəsini geniş şəkildə izah etmişdir. Əli Ülvinin (1881-1975) “Uşaqlarımıza Nəşidələr” (1912) kitabnın ön sözündə yazdığı məqalə də türk uşaq ədəbiyyatının tədqiqi baxımından diqqətə layiqdir [6, s.21].

Bu dövürdə uşaq tərbiyəsi sahəsində yazılmış ilk kitab Satı bəyin müəllifi olduğu “Fənn-i tərbiyə” əsəri olmuşdur. Bundan əlavə, Mehmed Şəmsəddin tərəfindən 1881-ci ildə nəşr edilən “Cümə günü uşaqlar ücün məktəb ” adlı kitab da bu sahəyə töhfə vermişdir. Həmçinin, uşaq təhsilinə xüsusi diqqət yeti ailələri maarifləndirməyi və bu sahədə cəmiyyətin inkişafına töhfə verməyi hədəfləmişlər. İbrahim Ethem Paşanın uşaqlar üçün yazdığı əsər və Şinasi, müəllim Naci və Recaizade Mahmut Ekremin La Fontaine

tərcümələri uşaqlar üçün ədəbiyyatın siqnallarını verir. Xüsusilə Sərvət-i Fünun dövründə Tofiq Fikrətin uşaqlar üçün yazdığı şeirlərdən ibarət "Şermin" adlı şeir kitabı uşaq anlayışında yenilikdən xəbər verir.

Türkiyədə uşaq ədəbiyyatına dolayı yolla xidmət edən fəaliyyətlərdən biri də tərcümə edilən əsərlərdir. Qərbdən türkcəyə tərcümə edilən ilk roman, Fenelonun "Telemakın macəraları" adlı əsəridir. Bu roman 1862-ci ildə Yusif Kamil Paşa tərəfindən ilk dəfə olaraq türkcəyə tərcümə edilmişdir. Əsərdə gələcəkdə hökmdar olacaq xüsusi bir uşağın təhsili və yetişdirilməsi əsas mövzu olaraq işlənmişdir. Bu romandan sonra "Robinzon Kruzo", "Qraf Monte Kristo", "Yerin Mərkəzinə Səyahət" "Beş həftə hava şarında səyahət", "Yerdən Aya Səyahət", "Dənizin Altında 20000 Liq", "Səksən gün dünya ətrafında", "İki il məktəb tətili", "Gulliverin səyahətləri" kimi bir sıra əsərlər də türkcəyə tərcümə olunmuşdur. Bu tərcümələrin əksəriyyəti fransız yazıçısı Jül Vernə məxsusdur. Sözügedən əsərlər bu gün dünya uşaq ədəbiyyatının klassikləri sırasında yer almaqdadır. Lakin qeyd etmək lazımdır ki, bu tərcümələr həmin dövrdə birbaşa uşaqları nəzərə alaraq edilməmişdir. Əsərlər daha çox maarifləndirici və mədəniyyətə inteqrasiya məqsədi daşıyırdı. Tənzimatın ilk nəslinin mühüm yazıçılarından olan Ziya Paşa, Jan Jak Russonun təbii olaraq yaxşı uşağın cəmiyyət tərəfindən pozulduğunu iddia edən "Emile" kitabını, uşağın realist şəkildə böyüdülməsi lazım olan roman formatında tərcümə edir.

Türkiyədə ilk uşaq ədəbiyyatı əsərlərindən hesab edilən "Mümeyyiz" qəzeti ilk uşaq qəzetidir. 1869-cu ildə nəşr edilmiş qəzetin ən diqqətçəkən xüsusiyyəti uşaqları oxumağa həvəsləndirməsi və qızların da oxumasının vacibliyini vurğulamasıdır. Uşaq Dostu" (1882), "Tərəqqi Vasitələri" (1882), "Uşaqlar üçün Qəzet" (1896), "Uşaqlara Bələdçi" (1897), "Uşaq Bağı" (1897) və "Dost" jurnalı İsmət Kürün araşdırmalarında bəhs etdiyi əsas nəşrlərdən biridir. İsmət Kür bu araşdırmalarında 1869-cu ildən başlayaraq "əlifba inqilabı"na qədər nəşr olunan jurnallarda uşaq yönümlü məqalələri və uşaqların davranış nümunələrini əks etdirməyə çalışmışdır. Həmin nəşrlərdə məqalə və tərcümələri dərc olunan müəllif və tərcüməçilər arasında sonradan uşaq ədəbiyyatında tanınmış və qabaqcıl simalar kimi qəbul edilən şəxslər də yer alır. Cümhuriyyət dövründə fəaliyyət göstərmiş yazıçı və tərcüməçilər – Tevfik Fikrət, Əli Ülvi, Ahmet İhsan Tokgöz və digərləri – uşaq ədəbiyyatının inkişafında mühüm rol oynamış, tərcüməçi kimi fəaliyyətə başlamış və sonradan ədəbi sistemdə mühüm yer qazanaraq qabaqcıl yazıçılar sırasına daxil olmuşlar [5, s.7-17]. Tərcümə edilmiş kitablara nəzər saldıqda Qərbin inkişaf prosesinin Türkiyədə bir qədər gec də olsa yaşandığını görmək mümkündür. Daniel Defonun 1719-cu ildə Qərbdə nəşr olunan, insanın ağıl və texnikadan istifadə edərək təbiətə və dünyaya hakim ola biləcəyi, insanın bu mövzuda kifayət qədər bilgi və zəkaya sahib olduğu inancını vurğulayan "Robinzon Kruzo" romanı "Hekayə-i" adını aldı. Robinson" 1864-cü ildə Əhməd Lütfinin tərcüməsi ilə nəşr olunur. 1726-cı ildə nəşr olunan Conatan Sviftin həll olunmamış mübarizə və dözümsüzlüyün şiddətli varlığını, tamah dalınca qaçan insanın sonunda yaşayacağı boşluğu, ümidsizlik və tənhalıqdan başqa bir şey qalmadığını üzə çıxaran "Qulliver" romanı Mahmud tərəfindən tərcümə edilmişdir. 1872-ci ildə Nedim və 'Qulliver Nam Yazarın Səyahət Kitabı.' nəşr olunur. Məna Tərcümə uşaq ədəbiyyatının bu iki kitabla başlaması Qərbdəki maariflənmə prosesinin tərcümə vasitəsilə bizə əks olunması kimi qəbul edilə bilər. Digər tərcümələr Jül Vernin kitabları da bu dövrdə nəşr olundu. 'Gizli ada' (1869) 'Səksən gündə dünya ətrafında' (1889) 'İki illik məktəb tətili' (1891) Ahmet İhsan Tokgözün tərcümələridir. "yerin mərkəzinə səyahət" (1885) "Şarla səyahət edən beş həftə" (1888) Mehmet Emin tərəfindən tərcümə edilmişdir. Bu dövrdə Şinasi, Recaizade Mahmut Əkrəm və Əhmət Mithat Əfəndinin La Fontaine və ya başqa şair və yazıçılardan şeir və nəsr şəklində tərcümə etdikləri qısa hekayələr və nağılların uyğunlaşdırılması da var. Səbəbləri Avropa mədəniyyətinə və sənayeləşməyə və maarifçilik prosesinə artan marağın konkret

əlamətləri olan bu əsərlərin nəşri cəmiyyətdə yeni mədəniyyət yaratmaq və bu mədəniyyətlə yetişmiş nəsillər yetişdirmək cəhdidir. Bu səylər Cümhuriyyət dövründə də eyni intensivliklə davam etdi. Bu dövrün səciyyəvi cəhəti tənzimat dövründə bir ziyalı hərəkatı olaraq başlayan və davam edən prosesin dövlət siyasəti kimi idarə olunması və davam etdirilməsidir [8, s.1-16].

Tənzimat dövründə uşaqlara birbaşa istiqamətlənmiş ilk təşəbbüs isə 1889-cu ildə Kaysərili həkim Rüştü tərəfindən hazırlanan “Nuhbetü’l-Etfal” adlı əlifba kitabı ilə gerçəkləşmişdir. Bu kitabda uşaqlar üçün yazılmış “Balqabaq və kəndlinin əhvalatı”, “Dəryaya gedən balığın əhvalatı”, “Qarışqa və cırcıramanın əhvalatı” kimi ibrətamiz tərcümə hekayələrlə yanaşı klassik nağıl tərcümələri olan “Cicada”, “Pişik və siçanların əhvalatları” nağılları dialoq üzərində qurulmuşdur. Mətnlərin əsas məqsədi uşaqlara dərsləri əyləncəli şəkildə öyrətmək və oxuma vərdişi qazandırmaq olmuşdur. Bu baxımdan Nüxbətül-Ətfal, Türkiyə uşaq ədəbiyyatının təşəkkülündə əhəmiyyətli rol oynamışdır.

Zeki Gürəlin sözlərinə görə, uşaq ədəbiyyatı uşağın təxəyyülünə xitab edən, estetik ölçüyə malik, lüğətə uyğun, ana dilini inkişaf etdirəcək milli və ümumbəşəri dəyərləri özündə əks etdirən, uşağın psixo-sosial inkişafına töhfə verən yazılı ədəbiyyat şifahi ədəbiyyat nümunələrini özündə birləşdirən bir sahədir [11, s.20]. Türkiyədə uşaq ədəbiyyatı müzakirələri 1970-ci ildən sonra daha intensiv xarakter aldı. Bu dövürdə Türk uşaq ədəbiyyatındakı çox şaxəli fəaliyyətləri ilə tanınan yazıçı Mustafa Ruhi Şirindir.

Bu dövrün ziyalılarının xüsusi diqqət yetirdiyi sahələrdən biri də uşaq tərbiyəsi və xüsusilə uşaq təhsili olmuşdur. Ahmet Mithat Əfəndi “Uşaq üzərində qanun və valideyn himayəsi” adlı əsərində vurğulayır ki, əgər ev şəraitində fərdi müəllim tutulacaqsa, ailələr bu seçimdə son dərəcə diqqətli olmalı və xüsusilə diplomlu şəxslərə üstünlük verməlidirlər. Onun fikrincə, uşağı dünyaya gətirən valideynlər onun tərbiyəsi və qayğısı ilə də bilavasitə məşğul olmalıdırlar. Valideynlərin övlad qarşısında həm maddi, həm də mənəvi hüquqi vəzifələri vardır. Uşağın qidalanması, təmizliyi, sağlamlığı, istirahəti və qorunması maddi vəzifələr kimi qiymətləndirilərkən, mənəvi vəzifələr isə ailənin düşüncə tərzinə və mənəvi dəyərlərinə əsaslanaraq yerinə yetirilməlidir.Əsərdə müəllif övladın birbaşa qayğısına qalmağın atadan çox anaya məxsus vəzifə olduğunu bildirir. Onun fikrincə, ana nə qədər savadlı və tərbiyəli olarsa, övladına bir o qədər çox müsbət təsir göstərə bilər. Valideyn üçün həyatda ən böyük xoşbəxtlik, övladına aşıladığı bilik və dəyərlərin nəticəsini müşahidə etməkdir. Ahmet Mithat Əfəndi bu əsərində ailənin uşaqlar qarşısında mənəvi borclarını yerinə yetirməkdə məktəbi bir vasitə kimi görür. Xüsusilə internat tipli məktəbləri faydalı hesab edən müəllifə görə, bu cür məktəblər uşaqlar üçün mənəvi bir ailə funksiyasını yerinə yetirir və xalqın ümumi təhsilinin təmin edilməsində mühüm rol oynayır. O, gündüz məktəblərinin bu sahədə eyni uğuru göstərə bilmədiyini irəli sürür. Belə ki, internat məktəbində təhsil alan uşaq artıq “valideyn quzusu” deyil, dövlətin himayəsində olan bir fərd kimi yetişdirilir və təhsilini başa vurduqdan sonra dövlətə xidmət etməlidir. Ahmet Mithat Əfəndi bu əsərində məktəbəqədər təhsil məsələsinə də toxunur. Onun “Validelik məktəbləri” adlandırdığı bu müəssisələrdə təkcə qiraət və kitab bilikləri deyil, elmi biliklər də tədris olunur. Şəkil və oyuncaqlar vasitəsilə uşaqların maarifləndirilməsi onların ətraf mühiti daha yaxşı tanımasına şərait yaradır. Bundan başqa, müəllifin “Atalıq sənəti” adlı əsərində də pedaqoji yanaşma müşahidə edilir. Bu kitabda Ahmet Mithat, ataların xüsusilə qız övladlarının tərbiyəsində diqqət etməli olduqları məqamları önə çəkir. Onun fikrincə, ailə qurmağa hazırlaşan kişilər təhsil, mədəniyyət və mənəvi dəyərləri gənc qızlarda axtarır və buna görə də valideynlər qız övladlarının tərbiyəsində bu istiqamətləri əsas tutmalıdırlar. O, eyni zamanda təhsildə idarəetmə və müdirlik məsələlərinin əhəmiyyətini vurğulayaraq, ailələrin bu sahədə də maarifləndirilməsinə ehtiyac olduğunu qeyd edir.

### *3.XIX əsr Azərbaycan uşaq ədəbiyyatının xüsusiyyətləri*

Əsrlər boyu ümumi ədəbi prosesin təsir dairəsində formalaşaraq inkişaf edən Azərbaycan uşaq ədəbiyyatı, milli ədəbiyyatımızın ayrılmaz tərkib hissəsi kimi diqqət çəkir. Bu ədəbiyyatın zəngin və dəyərli nümunələri, uşaqlar tərəfindən böyüklərlə müqayisə ediləcək dərəcədə maraq və həvəs ilə qəbul edilmiş, onların dünyagörüşünün, estetik zövqünün və əxlaqi dəyərlərinin formalaşmasında mühüm rol oynamışdır. Xalq ədəbiyyatına xas olan müdriklik, həyat fəlsəfəsi və əxlaqi təlimlər Azərbaycan uşaq ədəbiyyatının ilkin mənbəyi və ideya dayağı kimi çıxış etmişdir. Xüsusilə nağıl, əfsanə, məsəllər və bayatılar kimi janrlar vasitəsilə ötürülən tərbiyəvi məzmun bu sahənin ideya bünövrəsini təşkil etmişdir. Xalq hikmətini qorumaqla yanaşı, onu yeni estetik və fəlsəfi dəyərlərlə zənginləşdirən Nizami Gəncəvi, uşaq ədəbiyyatının inkişafında dolayı, lakin mühüm təsirə malik olmuşdur. Onun «Xəmsə»yə daxil olan əsərlərində əksini tapan ibrətamiz süjetlər, cəsarət, mərdlik, ədalət, zəka və təvazökarlıq kimi yüksək mənəvi keyfiyyətləri təbliğ edərək gənc oxucuların tərbiyəsinə xidmət etmişdir. «Zalım padşahla Zahidin dastanı», «Kərpickəsən kişinin dastanı», «Sultan Səncər və qarı», «Fitnə» kimi süjetlər, fəlsəfi dərinliyi və mənəvi-əxlaqi tutumu ilə uşaqlar üçün dəyərləndiriləcək nümunələr sırasına daxildir. Bu səbəbdən, Azərbaycan uşaq ədəbiyyatının yaranma tarixini yalnız XİX əsr ilə məhdudlaşdırmaq doğru olmazdı. Əksinə, bu ədəbiyyatın kökləri VIII–XII əsrlərə, yəni klassik Şərq və Azərbaycan poeziyasının təşəkkül dövrünə qədər uzanır. Bu dövrdən başlayaraq uşaq auditoriyasını nəzərə alan, onların təfəkkür və dəyərlərinə təsir göstərən ədəbi nümunələr ortaya çıxmışdır. Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani kimi klassiklərin yaradıcılığında da uşaq və gənc nəslin dünyagörüşünə uyğun gələn ideyalar, obrazlar və tərbiyəvi mövzular mövcuddur. Xüsusilə təmsil janrında və alleqoriya üsulu ilə qələmə alınan əsərlər uşaq ədəbiyyatının inkişafında mühüm rol oynamış, simvolik dillə mürəkkəb ictimai və əxlaqi problemləri sadə, anlaşılan şəkildə təqdim etməklə uşaqlar üçün həm öyrədici, həm də estetik cəhətdən maraqlı mətnlər yaratmışdır. Bu yanaşma həm də uşaqların düşüncə qabiliyyətini, simvolik təfəkkürünü və tənqidi baxışını inkişaf etdirmək baxımından əhəmiyyətlidir. Beləliklə, Azərbaycan uşaq ədəbiyyatı nəinki müasir dövrdə, həm də qədimdən gələn ədəbi-fəlsəfi təcrübənin davamı olaraq formalaşmış və zənginləşmişdir.

XIX əsr Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni-ədəbi həyatında mürəkkəb və ziddiyyətli hadisələrlə xarakterizə olunur. 1813-cü il oktyabrın 13-də Gülüstan kəndində və 1828-ci il fevralın 10-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində Rusiya ilə İran arasında bağlanmış müqavilələr nəticəsində Azərbaycan torpaqları iki yerə bölünmüş, onun bir hissəsi Rusiya imperiyasının, digər hissəsi isə İran dövlətinin tərkibinə daxil edilmişdir. Bu hadisələr xalqın ictimai şüuruna və milli kimliyinə dərin təsir göstərmişdir. Bununla belə, XIX əsr müasir bədii düşüncənin formalaşmasına, maarifçilik ideyalarının, milli müstəqillik və azadlıq arzularının geniş yayılmasına mühüm zəmin yaratmışdır. Dövrün ictimai-siyasi prosesləri və mədəni inkişafı Azərbaycan bədii ədəbiyyatına təsirsiz qalmamış, yeni ideya və estetik meyillərin yaranmasına səbəb olmuşdur. Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf tarixi göstərir ki, XIX əsrə qədər bilavasitə uşaqlar üçün nəzərdə tutulmuş müstəqil uşaq ədəbiyyatı mövcud olmamışdır. Klassik ədəbiyyatımızda uşaqların mütaliəsi üçün yararlı bədii nümunələrə rast gəlinir, lakin bu əsərlər spesifik olaraq uşaq auditoriyası üçün yazılmadığından, onları uşaq ədəbiyyatı deyil, uşaqlar üçün uyğun ədəbiyyat nümunələri kimi qiymətləndirmək daha məqsədəuyğundur. Uşaq ədəbiyyatı özünəməxsus spesifik xüsusiyyətləri, ideya-məzmun və bədii dəyərləri ilə "böyüklər üçün ədəbiyyat"dan fərqlənir və ədəbiyyatın mühüm bir sahəsini təşkil edir.

XIX əsrin son rübündə qəbul edilmiş 1870-ci il tarixli "Rus olmayan xalqların təhsili haqqında qaydalar" qərarı, "rus-müsəlman" məktəblərinin yaradılmasına şərait yaratdı. Bakı şəhərində yalnız bu məktəblərin sayı 10-a çatmışdı. XIX əsrin sonlarına yaxın, Şuşa (1893), Gəncə (1894), Nuxa (1896), Naxçıvan (1896), İrəvan (1896), Şamaxı (1897) və digər ərazilərdə belə məktəblərin fəaliyyətə başlaması müşahidə olundu. Bu məktəblərin təsis edilməsində imperiyanın yürüdüyü ikili siyasət öz təsirini göstərirdi: bir tərəfdən yerli əhali ilə hakim dairələr arasında əlaqə qura biləcək tərcüməçilər yetişdirmək, digər tərəfdən isə rus siyasətinə sadiq, itaətkar nəsil yetişdirmək məqsədi güdülürdü. Lakin aparılan hərtərəfli cəhdlərə baxmayaraq, bu sahədə gözlənilən nəticələr əldə edilmədi. Təsis edilmiş yeni tipli məktəblərdə təhsil alan nəsil, milli ədəbiyyat, mədəniyyət və maarifçilik sistemindən uzaq düşmədilər. Milli məktəblərin yaradılmasında Azərbaycan maarifçilərinin yorulmaz fəaliyyəti nəticəsində müəyyən irəliləyişlər əldə olundu. Seyid Əzim Şirvaninin Şamaxıdakı, Səfərəli bəy Vəlibəyovun, Mir Möhsün Nəvvabın Şuşadakı, Məhəmməd Tağı Sidqinin Ordubad və Naxçıvanda açdıqları ana dilindəki məktəblər, sonrakı maarifçilik hərəkatının möhkəm əsasını qoymuşdur. Azərbaycan uşaq ədəbiyyatının inkişafı da məhz yeni tipli məktəblərin yaranması ilə bağlı idi. Çünki milli məktəblərin yaranmasında milli ədəbiyyatın rolu olduqca önəmli idi. Rus hakimiyyəti isə Azərbaycan dilində dərsliklərin və kitabların nəşr olunmasında o qədər də maraqlı deyildi. Bir faktı demək kifayətdir ki, S.Ə.Şirvani nə qədər çalışdısa da, özünün ana dilində yazdığı əsərlərindən ibarət tərtib etdiyi «Rəbiül-ətfal» (1878) və «Tacül-kütub» (1883) adlı dərsliklərini çap etdirə bilmədi. Lakin bu illərdə adlarını çəkdiyimiz dərsliklərə zəruri tələbat var idi. Çünki, ana dilində cəmi iki vəsait - N.Dementyevin «Əlifba»sı (1839) və M.Ş.Vazehlə İ.Qriqoryevin «Kitabi-türki» (1852) adlı dərsliyi mövcud idi. Bir sıra dərsliklər nəşr edilib yayılsa da, bəzilərindən əlyazması şəklində istifadə olunurdu [8, s.77]. Bu mərhələ Azərbaycan ədəbiyyatında uşaq ədəbiyyatının təşəkkül tapdığı ilkin mərhələ kimi qiymətləndirilə bilər. Sözügedən zaman kəsiyində Abbasqulu ağa Bakıxanov, Seyid Əzim Şirvani, Səid Vəlibəyov, Rəşid bəy Əfəndizadə və Hacı Qaradağı kimi maarifçi yazarlar uşaqlar üçün əsərlər qələmə almışlar. Onların yaradıcılığında milli dəyərlərin, vətənpərvərlik duyğularının və maarifçilik ideyalarının təbliği xüsusi yer tutmuşdur. Bu dövrdə A. Bakıxanov, S. Ə. Şirvani, S. Vəlibəyov, R. Əfəndizadə kimi maarifçi yazarlar uşaqlar üçün əsərlər yazmışlar. Bu əsərlərdə milli dəyərlər, vətənpərvərlik və maarifçilik ideyaları ön plana çəkilmişdir. XIX əsrin ikinci yarısında M.F.Axundovun (1812-1878) ədəbi məktəbindən bəhrələnən H.Zərdabi (1837-1907), S.Ə.Şirvani (1835-1888), N.Vəzirov (1854-1926) və sair maarifçi-yazıçılar uşaq və gənclərin bir şəxsiyyət kimi formalaşması üçün bir sıra maraqlı uşaq əsərləri yaratdılar. Qələmə alınmış müxtəlif janrlı bu əsərlər, sonrakı illərdə yazılan uşaq əsərlərinin məzmun və forma baxımından zənginləşməsinə, həmçinin bir müstəqil sahə kimi genişlənməsinə səbəb olmuşdur [7, s.6].

1875-ci ildə Həsən bəy Zərdabinin təşəbbüsü ilə fəaliyyətə başlayan «Əkinçi» qəzeti Azərbaycan milli mətbuatının təməlini qoymaqla yanaşı, maarifçilik ideyalarının, o cümlədən uşaq ədəbiyyatının inkişafının mühüm tribunasına çevrilmişdir. Qəzet realist ədəbiyyatın, xüsusilə də onun bir qolu olan uşaq ədəbiyyatının təşəkkülünə xüsusi önəm vermiş, dərslik və oxu kitablarının hazırlanmasını maarifçilik islahatlarının əsas istiqamətlərindən biri kimi irəli sürmüşdür.

Uşaq ədəbiyyatına nəzəri və praktik töhfələr vermiş, Abbasqulu ağa Bakıxanov görkəmli alim, nasir olduğu kimi, həm də istedadlı şair olmuşdur. Onun “Nasayeh” əsərində 103 nəsihət qələmə alınmışdır, bu nəsihətlərin əsas qayəsi uşaqların mənəvi-əxlaqi tərbiyəsinin inkişafına kömək etməkdir. Böyüklərə ehtiram göstərmək, valideynlərə və qohum-əqrəbaya sevgi ilə yanaşmaq, onlara etirazsız itaət etmək, az danışmaq, lovğalıqdan uzaq durmaq, xeyirxahlıq kimi müsbət insani keyfiyyətləri həyat prinsipi kimi qəbul etmək

və s. kimi xüsusiyyətlər bu tövsiyələrin əsas məzmununu təşkil edir. Abbasqulu ağa Bakıxanovun mənzum hekayələri arasında "Haqq söz", "Qarı və Harun", "Yersiz minnət qoymaq" və digər nümunələr xüsusi olaraq seçilir. Bu əsərlər yüksək tərbiyəvi dəyərə malik olmaqla yanaşı, dərin məna tutumu və etik-estetik təsir qüvvəsi ilə fərqlənir. Bakıxanovun bu kimi bədii nümunələri oxucunu düşündürməyə, mənəvi dəyərləri aşılayaraq şəxsiyyətin formalaşmasına xidmət etməyə yönəlmişdir. Onun didaktik ruhlu bu əsərləri həm uşaq, həm də gənc auditoriya üçün tərbiyəvi əhəmiyyət daşıyan qiymətli ədəbiyyat nümunələri sırasında yer alır və uşaq ədəbiyyatının inkişafına böyük töhfə vermişdir.

Azərbaycan uşaq ədəbiyyatının inkişafı üçün folklordan istifadə yolu ilə gözəl əsərlər yaratmış, realizmin görkəmli nümayəndəsi, maarifçi realist satiranın banisi Qasım bəy Zakir, uşaqlar üçün yazdığı bədii nümunələrdə əxlaqi-mənəvi tərbiyə verən ideyaları ilə seçilir. Ədibin təmsilləri kiçik yaşlı oxuculara həyat gerçəklikləri barədə ilkin biliklər aşılayır, təbiət və cəmiyyətin daxili ziddiyyətləri haqqında onlarda ümumi təsəvvür formalaşdırır, həmçinin ana dilinin zəngin leksik imkanlarının mənimsədilməsində mühüm rol oynayır. Folklor ənənələrindən bəhrələnən bu təmsillər bu gün də didaktik və bədii-estetik dəyərini qoruyub saxlayır. Bu əsərlərdə təbliğ olunan ideya şairin dövrü ilə həmahəng idi. Qasım bəy Zakirin təmsilləri sırasına "Aslan, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Səfaqətli dostlar haqqında", "Tülkü və Şir", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında" adlı əsərləri daxildir. O, bir tərəfdən dövrünün ictimai və siyasi hadisələrinə özünün eyhamları ilə işarələr edir, zülmün əleyhinə çıxır, o biri tərəfdən zəmanə gənclərinə vəfa, sədaqət, mərdlik və s. kimi nəcib tərbiyəvi məsləhətlər verirdi [2, s.208].

Azərbaycan milli uşaq ədəbiyyatının inkişafı bilavasitə S.Ə.Şirvaninin yaradıcılığı ilə bağlıdır. Prof. X.Məmmədov yazır: “Seyid Əzim Şirvani Azərbaycan ədəbiyyatı tarixində ilk sənətkardır ki, əsrin meydana çıxardığı ehtiyacı – uşaq ədəbiyyatı yaratmaq ideyasının zəruriliyini şüurlu şəkildə dərk etmiş, əski yaradıcılıq yolunda kəskin dönüş yaradaraq, ömrünün on dörd yetkin ilini milli məktəblərin dərs və oxu kitabı ilə təmin olunması işinə həsr etmişdir…Sələflərdən fərqli olaraq S.Ə.Şirvani uşaq ədəbiyyatının spesifikası məsələlərinə dərindən bələd olmuş, onları əməli yaradıcılıq fəaliyyətinə tətbiq etməklə orijinal uşaq əsərləri yarada bilmişdir. Məhz bu keyfiyyətlərə görəS.Ə.Şirvani milli uşaq ədəbiyyatımızın banisi olmaq hüququnu qazanmışdır” [11, s.26-27]. Seyid Əzim Şirvani öz dövrünün qabaqcıl ideyalarını uşaq auditoriyasına çatdırmaq üçün sadə və anlaşıqlı dilə üstünlük vermişdir. Onun əsərlərində humanizm, əməksevərlik, düzlük, dostluq və elmə maraq kimi mövzular əsas yer tutur. Şair uşaqları cəhalətə qarşı mübarizəyə, elmə və təhsilə meyl etməyə çağırırdı. Bu baxımdan onun şeirləri təkcə bədii-estetik deyil, həm də maarifçi-pedaqoji funksiyanı yerinə yetirirdi. Bir maarifçi sənətkar kimi, Seyid Əzim Şirvani bədii yaradıcılığında elmin, təhsilin əhəmiyyətini, faydasını əks etdirən yaradıcılıq nümunələri mühüm yer tutur. Şairin 'Əkinçi' qəzetində nəşr etdirdiyi “Qafqaz müsəlmanlarına xitab”, “Təlim-tərbiyə haqqında” və digər maarifçi ideyaları əks etdirən əsərlərində, savadsızlıq və cəhalətin nəticəsində yaranan sosial fəsadlara diqqət çəkilir.

## *4.Müqayisəli-tipoloji təhlil*

### *4.1.Mövzu və ideya baxımından oxşar və fərqli cəhətlər*

Həm Tənzimat dövrü Osmanlı uşaq ədəbiyyatında, həm də XIX əsr Azərbaycan uşaq ədəbiyyatında əsas ideya maarifçilik və mənəvi-əxlaqi tərbiyə prinsiplərinə əsaslanır. Bununla belə, iki ədəbiyyat arasında fərqli ictimai-siyasi kontekstlərə əsaslanan ideoloji və institusional fərqliliklər mövcuddur. Belə ki, Osmanlıda maarifçilik ideyaları əsasən dövlətin təşəbbüsü və himayəsi ilə reallaşdırılmış, Azərbaycanda isə bu ideyaların yayılmasında ziyalılar və maarifçi ədiblərin təşəbbüsü ön planda olmuşdur.

### *4.2.Dil və üslub xüsusiyyətləri*

Tənzimat dövrü Osmanlı uşaq ədəbiyyatında ərəb və fars mənşəli leksik elementlərin üstünlük təşkil etməsi müşahidə olunur ki, bu da dövrün rəsmi və ədəbi dil ənənələrinə uyğun idi. Əvəzində, Azərbaycan uşaq ədəbiyyatında isə daha çox xalq danışıq dili, sadə və anlaşılan üslub üstünlük qazanmış, bu da əsərlərin uşaq auditoriyası üçün daha əlçatan olmasına şərait yaratmışdır.

### 4.3.Uşaq obrazlarının təqdimatı və pedaqoji yanaşma

Hər iki ədəbiyyatda uşaq obrazları ideallaşdırılmış şəkildə təqdim olunmuşdur. Bu obrazlar əksər hallarda çalışqan, dürüst, nəzakətli, valideynlərinə və müəllimlərinə hörmət göstərən fərdlər kimi təsvir edilir. Bu yanaşma, dövrün pedaqoji tələbləri ilə səsləşərək, gənc nəsildə müsbət davranış modellərinin formalaşdırılmasını hədəfləmişdir.

### 4.4.Didaktik məqsəd və maarifçilik elementləri

Hər iki ədəbi mühitdə uşaq ədəbiyyatı nəsihət xarakterli məzmunla zəngindir. Əsərlərdə öyüd-nəsihət, nümunəvi davranışların təşviqi və əxlaqi prinsiplərin aşılanması dominant funksiyalardan birini təşkil edir. Bu da göstərir ki, uşaq ədəbiyyatının əsas məqsədi uşaqları düzgün istiqamətləndirmək, onları cəmiyyətə yararlı və məsuliyyətli fərdlər kimi yetişdirmək olmuşdur.

## 5.Nəticə

Tənzimat dövrü və XIX əsr Azərbaycan uşaq ədəbiyyatı arasında müəyyən tipoloji paralellər müşahidə olunmaqdadır. Hər iki ədəbiyyatın başlıca məqsədi gənc nəslin əxlaqi-mənəvi cəhətdən tərbiyəsi, onları faydalı vətəndaşlar kimi formalaşdırmaq, cəmiyyət üçün yararlı fərdlərə çevirmək olmuşdur. Fərqli siyasi və mədəni mühitlərdə yaranmalarına baxmayaraq, hər iki dövrün uşaq ədəbiyyatı maarifçilik ideyalarını ifadə edən ortaq məzmun xətti ilə səciyyələnir. Bu baxımdan aparılan tipoloji paralellər müasir uşaq ədəbiyyatının təməl prinsiplərinin daha dərindən anlaşılmasına töhfə verə bilər. Məqalənin məqsədi Tənzimat dövrü Osmanlı uşaq ədəbiyyatı ilə XIX əsr Azərbaycan uşaq ədəbiyyatını müqayisəli-tipoloji müstəvidə təhlil etməkdən ibarətdir. Tədqiqatın əsas istiqamətləri kimi bu ədəbiyyatlarda təmsil olunan uşaq obrazlarının və didaktik motivlərin araşdırılması, müəlliflərin yaradıcılığının qarşılaşdırılması, maarifçilik və əxlaqi dəyərlərin bədii ifadəsi və onların gənc nəslin formalaşmasındakı rolu ön plana çəkilir. Bu təhlil nəticəsində hər iki ədəbi dövrün uşaq ədəbiyyatının inkişafına verdiyi töhfələr və ortaq ideoloji istiqamətlər müəyyənləşdirilir.

## 6.REFERENCES


1. Koyuncuoglu, A. (n.d.). *The historical development of children's literature in the world and in Turkey*. Spor. (in Turkish)
2. Mammadova, D. (1985). *Gasim bey Zakir (collection of articles)*. Baku: Elm (Science). Azerbaijan SSR Academy of Sciences, Nizami Institute of Literature. (in Azerbaijani)
3. (2005). *Anthology of Azerbaijani children's literature*. Baku: Onder Publishing. (in Azerbaijani)
4. Alaskarli, F. (2009). *The developmental stages of Azerbaijani children's literature*. Baku. (in Azerbaijani)
5. Kur, I. (1991). *Periodical children's publications in Turkey*. Ankara: Ataturk Cultural Center Publications. (in Turkish)
6. Shirin, M. R. (n.d.). *Literature and children's literature: The purpose and function of literature*. Retrieved from https://tdk.gov.tr/wp (in Turkish)
7. Yusifoglu, R. (2006). *Children's literature*. Baku: Shirvannashr. (in Azerbaijani)
8. Shirin, R. M. (2006). *Television, children and family: The television spiral of the new childhood* (3rd ed.). Istanbul: Iz Publishing. (in Turkish)

**9.** Ahmad, V. (2006). *Azerbaijani children's literature (textbook)*. Baku. (in Azerbaijani)
**10.** Khalil, Z., & Alaskarli, F. (2007). *Children's literature* (p. 77). Baku. (in Azerbaijani)
**11.** Gurel, Z., Temizyurek, F., & Shahbaz, N. K. (2007). *Children's literature*. Ankara: Oncu Kitap. (in Turkish)
**12.** Mammadov, Kh. (1992). *Azerbaijani children's literature*. Baku. (in Azerbaijani)

## *ƏDƏBİYYAT*

**1.** Koyuncuoğlu, A. (t.y.). *Çocuk edebiyatının dünya'daki ve Türkiye'deki tarihsel gelişimi*. Spor.
**2.** Məmmədova, D. (1985). *Qasım bəy Zakir (məqalələr məcmuəsi)*. Bakı: Elm. Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu.
**3.** (2005). *Azərbaycan uşaq ədəbiyyatı antologiyası*. Bakı: Öndər Nəşriyyat.
**4.** Ələsgərli, F. (2009). *Azərbaycan uşaq ədəbiyyatının inkişaf mərhələsi*. Bakı.
**5.** Kür, İ. (1991). *Türkiye'de süreli çocuk yayınları*. Ankara: Atatürk Kültür Merkezi Yayınları.
**6.** Şirin, M. R. (t.y.). *Edebiyat ve çocuk edebiyatı. Edebiyatın amacı ve işlevi*. Retrieved from https://tdk.gov.tr/wp
**7.** Yusifoğlu, R. (2006). *Uşaq ədəbiyyatı*. Bakı: Şirvannəşr.
**8.** Şirin, R. M. (2006). *Televizyon, çocuk ve aile: Yeni çocukluğun televizyon sarmalı* (3. bs). İstanbul: İz Yayıncılık.
**9.** Əhməd, V. (2006). *Azərbaycan uşaq ədəbiyyatı (dərslik)*. Bakı.
**10.** Xəlil, Z., & Əsgərli, F. (2007). *Uşaq ədəbiyyatı* (s. 77). Bakı.
**11.** Gürel, Z., Temizyürek, F., & Şahbaz, N. K. (2007). *Çocuk edebiyatı*. Ankara: Öncü Kitap.
**12.** Məmmədov, X. (1992). *Azərbaycan uşaq ədəbiyyatı*. Bakı.